# Təntənəli bayram tədbiri

Noyabrın 8-də Qəbələ Mədəniyyət Mərkəzində Dövlət Bayrağı Gününə həsr olunmuş təntənəli bayram tədbiri keçirildi.

Tədbirdə rayon icra hakimiyyətinin, inzibati ərazi nümayəndəliklərinin məsul işçiləri, bələdiyyə sədrləri, idarə, müəssisə, təşkilatların əmək kollektivlərinin və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.






Bayram tədbirində RİH-nin məsul işçisi Pərvin Məmmədov Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin rayon ictimaiyyətinə Dövlət Bayrağı Günü münasibətilə təbrik məktubunu oxudu.

Aparıcılar Azərbaycanın suverenliyinin rəmzi olan üçrəngli Dövlət bayrağının ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qəbul edildiyini və qaldırıldığını, yenidən bir də 1990-cı ilin 17 noyabrında Naxçıvan Ali Məclisinin sədri ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edildiyini tamaşaçıların diqqətinə çatdırdılar. Eləcə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 17 noyabr 2009-cu il tarixli sərəncama əsasən ölkəmizdə hər il 9 noyabrın Dövlət Bayrağı Günü kimi qeyd olunduğunu bildirdilər.

Təntənəli bayram şənliyi rayon mədəniyyət və turizm şöbəsi tərəfindən hazırlanan maraqlı ədəbi-bədii kompozisiya ilə davam etdirildi.

Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova iştirak etmişdir

✍ **Anar RÜSTƏMLİ.**

# Konstitusiya Gününə dair «dəyirmi masa» təşkil olunub

Qəbələ Mədəniyyət Mərkəzində Konstitusiya Gününə həsr olunmuş “dəyirmi masa” keçirilmişdir

Tədbiri giriş sözü ilə rayon mədəniyyət və turizm şöbəsinin müdiri Nargilə Qafarova açaraq, 12 noyabr 1995-ci ildə qəbul olunmuş Konstitusiya ilə Azərbaycan Respublikasında dövlət quruculuğunun əsasının qoyulduğunu qeyd etmişdir. O, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu olan Heydər Əliyevin bilavasitə rəhbərliyilə hazırlanan və ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilən Konstitusiyamızın dövlətin və cəmiyyətin bütün sahələrini əhatə etdiyini, eləcə də ölkədə islahatların aparılmasına hüquqi baza yaratdığını diqqətə çatdırmışdır.



Tədbirdə rayon icra hakimiyyətinin baş məsləhətçisi Azər Şirinov, mədəniyyət mərkəzinin direktor müavini Şəbnəm Kamallı, YAP rayon gənclər təşkilatının sədri Namiq Ağayev və mərkəzləşdirilmiş kitabxana sisteminin direktoru Ramiz Mirzəyev çıxış edərək müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasını beynəlxalq hüquq normalarına uyğun, insan hüquq və azadlıqlarına geniş yer ayıran mükəmməl normativ-hüquqi sənəd kimi dəyərləndirmişlər. Çıxış edənlər əsas qanunun qəbul olunmasından ötən dövrdə Azərbaycanda demokratik və hüquqi dövlət quruculuğu sahəsində böyük uğurların qazanıldığını, mühüm qanunvericilik aktlarının qəbul edildiyini bildirmişlər.

✍ **Zahir KƏRİMOV.**

# Ağacəkmə kampaniyası keçirilib

«Ölkəmizi tanıyaq» devizi altında rayonumuza gələn 320 şagird və onlara rəhbərlik edən müəllimlər Qəbələ şəhərində «Hərəmiz bir ağac əkək» devizi altında keçirilən ağacəkmə aksiyasında iştirak edib. İDEA İctimai Birliyinin təşəbbüsü ilə keçirilən yaşıllaşdırma aksiyası zamanı məktəblilər şəhərin Zərifə Əliyeva küçəsində 400-dən çox küknar, ağcaqayın və palıd ağacları əkiblər.





Qonaqlardan rayonumuz haqqında fikirlərini soruşduq. Biləsuvar RİH-nin məsul işçisi, həmin rayondan olan qrupun rəhbəri Ləman Yüzbaşova: Qəbələdə birinci dəfədir ki, oluram, mətbuatdan eşitmişdim, ancaq bu qədər gözəl və müasir olmasını təsəvvür etmirdim.




Ucar rayonundan gəlmiş şagird Sevinc Şirinova: Qəbələnin keçmişi haqqında tarix kitablarında oxumuşdum, bu günü ilə mətbuatdan, televiziya kanallarından tanışam. Fəxr etməliyik ki, vətənimizin ucqarlarında da dünyaya səs salmış belə gözəl şəhər var və bu gün biz buradayıq.

«Qəbələ mənə xoş təəssürat bağışladı. Burada keçirilən yaşıllaşdırma aksiyasında fəal iştirak etdim. Qayıdanda sinif yoldaşlarıma Qəbələdə gördüklərim barədə danışacağam, onlara çəkdirdiyim xatirə şəkillərini göstərəcəyəm.

Bu sözləri Cəbrayıl rayonu Cəmil Əhmədov adına tam orta məktəbin X sinif şagirdi Ləman Babayeva deyib. «Qəbələ həm qədim, həm də müasir şəhərdir. İstərdim ki, ailəmizlə birgə yenə bura gəlim. Qəbələnin bu qədər gözəl olduğuna inanmırdım. Qəbələ barədə çox eşitmişdim və buradakı «Tufandağ» Qış-Yay İstirahət Kompleksi, «Beltmann» piano fabriki və qədim Qəbələ şəhərinin ərazisi, «Qəbələnd» İstirahət və Əyləncə Mərkəzi ən çox görmək istədiyim yerlər idi. Nəhayət ki, bu gün arzuma çatdım».

Məktəblilər Qəbələnin füsunkar gözəlliyinin onların təəssüratlarında xoş xatirələr yaratdığını bildirdilər.

✍ **Vüsal SƏMƏDOV,**
**İlkin Vəlizadə.**